**ZÜMRÜD SƏMƏDOVA**
**AMEA Folklor İnstitutu**

# ELMİNİN DƏYƏRİ, SÖZÜNÜN KƏSƏRİ İLƏ UCALAN ALİM ÖMRÜ...

***Elm dəyərindən, söz kəsərindən şirə çəkər...***

Ömür sarayından hər gün bir kərpic düşür. Hərdən sevinə-sevinə, hərdən də yanğıynan...sanki heç istəmirmiş kimi... Keşməkeşli acılı-şirinli insan ömrünə dayaq və dəstək olmaqdan böyük təəssüf hissiylə ayrılırmış kimi...Düşdükcə bir saniyəlik zaman qərinələrə bərabər gəlir...Torpağa döşəndikcə tükənir. Sanki o zaman daşıdığı, dəstək olduğu mənalı ömrün dəyərini anlayır. Dəyəri sağlığında bilinən, hər gün ömründən bir kərpic düşdükcə həyata, elmə və elinə daha sıx bağlananlar tanrının sevdiyi və qoruduğu insanlardır deyə düşünürəm... Onların nə elmi tükənir, nə də ki, deməyə sözləri...

Hələ tələbəlik illərindən tanıdığımız Azad müəllim də məhz dəyəri sağlığında bilinən xalqına folklorşünaslıq elminə bəxş etdiyi tövhələri, maraqlı araşdırmaları ilə sayılıb seçilən alimlərimiz sırasındadır....

Yadımdadı... I kurs tələbəsi idim. Folklor kafedrasında tez-tez dərnəklər təşkil olunardı. O zaman biz aşağı kurs tələbələri Azad müəllimin qarşısında məruzə deyənlərə böyük həsəd və heyranlıqla baxırdıq. Mən öncələr dilçilik elminə daha çox maraq göstərirdim. Hətta bir gün Folklor kafedrasının müəllimlərindən olan Kamələ xanım dərnəkdə iştirak edəcək tələbələrin siyahısını yazanda məndən səni də yazımmı deyə xəbər aldıqda demişdim ki, elə-belə marağa iştirak edərəm .Mən folklorşünas olmaq fikrində deyiləm gələcəkdə dililçilik elmini seçəcəm. Kamələ xanım dodaqaltı gülümsəyərək onu zaman göstərər dedi. Bəli zaman keçdikcə heç də hər şey düşündüyüm kimi olmadı. Gün o gün oldu ki, bir təsadüf mən də həmin dərnəyin iştirakçısı oldum.. «Sayların sakrementallığı» ilə əlaqəli məru-

zəmlə çıxış edirdim. Azad müəllim sonralar da həmişə olduğu kimi məni sorğu-suala tutdu. Hardansa onda belə bir sual yarandı. Siz tərəflərdə aşıq varmı? Oralarda Aşıq Məhəmməddən başqa sənətkar yetişməyib deyirlər. Səncə bu doğrudurmu? Mən düzü tam əmin olmasamda bu sözdən təsirlənərək dedim ki, var...Onda sübüt et ki, həqiqətən də orada aşıq var məndə sənə bu mövzuda diplom işi verim. Sən də Zaqatalanı bir mühit kimi ortaya qoy.... Sonralar bu sualın izi ilə qoynunda böyüyüb boya-başa çatdığım gözəl Zaqatalamı qarış-qarış gəzib toplama işləri aparmağım məni Folklor İnstitutuna qədər gətirdi...Doğrudur, o zaman Azad müəllimin zəhmlə «onda get sübüt et ki var» deməsi məni əmin olmadan cəsarətlə var deməyimin sonralar çox əziyyətini çəkdirmişdi. Elə olurduki, bir sənətkarı tapıb yaradıcılığını üzə çıxartmaq, onlarla dil tapmaq üçün günlərlə vaxt sərf olunurdu. O zaman içimdə belə bir yükü çiyinlərim üzərinə götürdüyüm üçün özümü qınayırdım da.. Amma sonralar zaman keçdikcə işin içinə daxil olduqca sənətkarların izi ilə qarış-qarış gəzdiym yerləri, oranın əsrarəngiz təbiətini, hündür zirvəli dağlarını gördükcə sizə qəlbimdə min dəfə saqol deyirdim Azad müəllim. Min saqol deyirdim ona görə ki, məni xeyirxah bir işə sövq etdiniz. Bir yaxşılığı da onda etdiniz ki, mənə rəhbər kimi, ən yaxşı, ən qayğıkeş hər zaman tələbələrinə doğru-düzgün istiqamət verən, elmə həvəsləndirən Etibar Talıblını verdiniz...Beləliklə, Azad müəllimin zəhmlə dediyi bir kəlməsi məni folklara bağladı...

Onun özünəməxsus zəhmi, səlis və aydın danışıq tərzi, elmi mühazirələri, həmişə səsli-küylü olan auditoriyamıza qəribə bir sükut bəxş edirdi... Biz tələbələr onun söznən yartdığı maraqlı obrazlar aləminə baş vururduq. Hərdən özümüzü Koroğlunun Nigarı kimi igid, Aysultan kimi əhdinə sədaqətli, dözümlü görür, hərdən də uzaq bir diyara, miflər dünyasına gedib çıxırdıq. Məncə elə əsl elmin dəyəri, sözlərin mənasında ifadə olunur. Odur ki, tanrı sizdən elminizi və dilinizdə sözünüzü, canınızdan sağlığınızı heç vaxt əskik etməsin deyirəm...